




**Qismət Yunusoğlu,**
Bakı Dövlət Universitetinin müəllimi

# Hun-Quz... etnosoyluların əski Təbriz şəhəri

(əvvəli ötən sayımızda)

***Cənubi Sabir/Sibir çöllərinin Təbriz şəhəri Abu-Su/Ob çayının qolu İrtış (Ərdış ismi əski Türkcə "güclü, iti sürətli", "bərk axan", "kənar sahilləri dağıdan" mənasında işlədilib) çayı hövzəsində, Tomsk vilayətində (mərkəzi Tomsk şəhəridir) yerləşir.***

***Bu toponimlər Tom/-Tomi çayının adından götürülüb.***

***Arxeoloq-etnoqraf, filologiya elmləri doktoru, Tomsk Dövlət Pedaqoji institutunun professoru A.P.Dulzonun "Ket dili qramatikasına dair oçerklər" (1964), "Ket dili" (1966) kitablarında, eləcə də, "Qərbi Sibirin Ket toponimləri" (1959) məqaləsində Ket dilində "Tom", "Tomi" sözlərinin "qara", "qaranlıq" mənasında işlənildiyi və etimoloji mənşəyinə görə Türk-Moğol dilləri ailəsinə aid olduğu bildirilir (rus dilində "temnıy", "temnota" ifadəsinin mənşəyi aydın olur).***

Tomsk və İrkutsk Dövlət universitetlərinin tədqiqatçı-müəllimləri A.M.Maloletko və M.N.Melkevfundamental elmi-nəzəri ("Sibirin qədim xalqları", "Orxon yazılarının daş üzərində təsviri, VIII əsr"...kitabları) ilsübutlarla bildirmişlər ki, bölgənin kökənli xalqlarının (Xantilər, Evenklər, Mansilər, Ketlər, Yuqarlar...) etnomorfogenetik bağlılığı, etimoloji mənşəyi, soyköklərinin gen-qan mənsubluğu...əski Hun-Quz-Sak qəbilə-tayfa birliklərinin şəcərə davamlılığını sübut edir. Onların şifahi və yazılı dil üslubu eyni etnoailə kökündən rişləndiyi üçün minilliklərlə şivə dəyişikliyinə, dialekt-tələffüz təhrifinə, assimlyasiya təsirinə məruz qalsalar da, əski Türk mənsubluğunu milli-mənəvi dəyərlərlə yanaşı, yer adlarının yaranma tarixi və etimoloji mənalarında qoruyub saxlamışlar.



Cənubi Sabir/Sibir çöllərinin azsaylı Türkdilli xalqlarından Qaraqaşlıların sayı 2021-ci il məlumatına görə 800 nəfərə yaxındır (onlar rus mənbələrində Tofalar adlanır), dilləri Şərqi Sayan əcdadlı Sayat xalqları (2010-cu il məlumatına görə sayları 3700 nəfər) ilə doğma etnogenetik-linqvistik kökə bağlıdır, Buryat Respublikasının Oka nahiyəsində və Ər Qurd-/İrkutsk vilayətində yaşayırlar. Anqara çayının sol qolu Oka çayı (uzunluğu 630 km) Sayat dilində Ok-xem/Ox kimi axan su mənasındadır, rusların işğalınadək bu cür adlanıb.

Milli-mənəvi Türk irsiinin qorunub saxlanılması kimi Sayatlar xalqı tərəfindən ənənvi keçirilən Uluğ Dağ/Böyük Dağ şölənini göstərmək olar. Uluğ/Ulu Dağ xitabı sakral dəyəri ilə Dağları himayə edən Boran xanın şəninə ünvanlanıb...

Şərqi Avropa düzəngahında, əski Hun-Uyğur-Quz-Sak...torpaqlarından axan ən uzun İtil/Volqa çayının sağ qolu olan Oka çayının (uzunluğu 1500 km) hidronim kimi etimoloji mənası əski Hun/Fin dilində joki/oki-çay anlamı kimi yozulur və bu çaya tökülən Tarus çayı sahilində eyniadlı şəhər (Moskva şəhərindən 130 km cənubda, Kaluqa şəhəri yaxınlığında) yerləşir.

Bölgənin coğrafi adlarının etnodil-etnoailə mənşəyinin eyniliyi və oxşarlığı barədə rus dilçi-alimlərindən M.R.Fasmer (1886-1962), 5 cildlik "Su adlarının rus lüğəti", "Rus dilinin etimologiyası", akademik V.N.Toporov (1928-2005), "Etimologiya"...əsərlərində fikirlərini bildirmişlər.

*Tomsk və İrkutsk Dövlət universitetlərinin tədqiqatçı-müəllimləri A.M.Maloletko və M.N.Melkevfundamental elmi-nəzəri ("Sibirin qədim xalqları", "Orxon yazılarının daş üzərində təsviri, VIII əsr"...kitabları) ilsübutlarla bildirmişlər ki, bölgənin kökənli xalqlarının (Xantilər, Evenklər, Mansilər, Ketlər, Yuqarlar...) etnomorfogenetik bağlılığı, etimoloji mənşəyi, soyköklərinin gen-qan mənsubluğu...əski Hun-Quz-Sak qəbilə-tayfa birliklərinin şəcərə davamlılığını sübut edir. Onların şifahi və yazılı dil üslubu eyni etnoailə kökündən rişləndiyi üçün minilliklərlə şivə dəyişikliyinə, dialekt-tələffüz təhrifinə, assimlyasiya təsirinə məruz qalsalar da, əski Türk mənsubluğunu milli-mənəvi dəyərlərlə yanaşı, yer adlarının yaranma tarixi və etimoloji mənalarında qoruyub saxlamışlar...*



Tarus şəhəri (sahəsi 7,5 kv.km) haqqında sənədli məlumatlar XIII əsrə aiddir, məskunlaşma tarixi qədim dövrləri, kökənli Hun-Uyğu-Sak..xalqlarının (bu coğrafi ərazilər əski Türk dilliləri-Bəyaz Türklərin yurd yerləridir, Hun-Uyğur ailəsinin çoxsaylı qəbilə-tayfa dillərinin yayıldığı) qarşılıqlı və genişlənən hərbi-siyasi, iqtisadi-ticarət mərhələlərini əhatə etmişdir. Sabir/Sibir çöllərinin Təbriz şəhəri ilə Şərqi Avropa düzənliyinin Tarus şəhəri, hər iki Oka çaylarının....etimoloji köklərində məhz Türk dilinin və Türkdilli xalqlarının dialektik-leksik mənsubluğu ifadə olunmuş, bu coğrafi terminlərin yayılma miqyasının ilk növbədə Böyük xalqların "Böyük köç" yolu ilə eynilik təşkil etmişdir.

***Göründüyü kimi, Təbriz, Tomiris, Touruz/Tovuz, Tarus, Tom....toponimlərinin elmi-nəzəri təhlili sübut edir ki, minilliklər ərzində yer adlarının əski dil-ailə etnomənsubluğu bir sıra dəyişikliklərə uğrasa da mənsub olduğu Xalqın tarixini, coğrafi hüdudlarını, filoloji dəyərləri-ni istənilən kəlmənin, sözün, ifadənin....etimoloji mənasında qoruyub saxlayır,***

***Bu Xalq sayca çox, ərazi baxımından xeyli böyük, milli-mənəvi irscə zəngindirsə...artıq Sübutun önlənməsi qaçılmaz/danılmaz olacaqdır...***

***Cənubi Sabir/Sibir-Qıpçaq çöllərinin açılan genişliyi kimi...***

(ardı var)